


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

100 il

www.pq.mia.gov.az

polisazerbaycan

26 oktyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 41 (3655)


# Sumqayıt yüksəliş yolunda

## Qeyri-neft sektoru iqtisadiyyatın əsas sahəsinə çevrilir



**Azərbaycandakı sənaye qurumlarını əhatə edən park, zona, məhəllələr neftdən asılılığı azaltmaqla yanaşı, qeyri-neft sektorunun davamlı inkişafını önə çıxarır. Prezident İlham Əliyevin oktyabrın 23-də Sumqayıtda açılış və təməlqoyma mərasimlərində iştirak etdiyi yeni istehsal müəssisələri də məhsul istehsalının artması, ixrac həcminin genişlənməsi perspektivləri yaradır.**

### Yüksəliş və quruculuq məkanı

Prezident İlham Əliyev Sumqayıtda 2 saylı Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Dövlət başçısına məlumat verilib ki, 150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18 min 288,4 kvadratmetrdir.

Dövlət başçısı həmçinin Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. Stadion iyirmi iki sektordan ibarət dir.

Prezidentin açılış və təməlqoyma mərasimlərində iştirak etdiyi yeni istehsal müəssisələri Sumqayıt Kimya Sənaye Parkında yerləşir. Bu park Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən 20-si fəaliyyət göstərir.

Oktyabrın 23-də isə "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatıb.

### Xoşbəxt gələcəyin astanasında

Prezidentin istehsal müəssisələrinin təməlqoyma mərasimlərində iştirak etməsi o deməkdir ki, Azərbaycan yeni davamlı uğurların, sosial-iqtisadi rifahın və xoşbəxt gələcəyin astanasındadır. Reallıq onu da diktə edir ki, Azərbaycan zəngin ölkə olmaq mərhələsini çoxdan keçib. Qeyri-neft sektorunun yüksək inkişaf perspektivləri və iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın yaxın onilliklərdə qeyri-neft məhsullarının ixracatçısı kimi dünyada böyük nüfuza malik olmasını təmin edəcək. İqtisadi siyasətin yeni müstəvidə və modern mərhələdə gücləndirilməsi birbaşa Prezident İlham Əliyevin sənaye sektoruna göstərdiyi diqqətin və qayğının təzahürüdür. Bu gün qeyri-neft sahələrinin innovativ iqtisadiyyatın əsas xəttinə çevrilməsi, kiberinformasiya cəmiyyətinin formalaşdırılması, ən yeni kreativ texnologiyalar meydanının genişləndirilməsi də Prezidentin hədəflədiyi sahələrdir.

# Prezident naziri qəbul edib

## Hərbi əməkdaşlıq daha da möhkəmlənir

Prezident İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulanıb. Bu baxımdan ölkəmizin müxtəlif yerlərində "Mustafa Kamal Atatürk - 2023" Azərbaycan-Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olunub.

# Regional sülhə çağırış

## Azərbaycan sülh müqaviləsini imzalamağa hazırdır

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 20-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul edib.

Görüşdə Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və tezliklə imzalanması ilə bağlı niyyətini bir daha ifadə edib.

# Yollar inkişafa aparır

## Dövlət başçısı yeni yolun açılışında iştirak edib

Son illərdə ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları inşa edilib.

Prezident İlham Əliyevin oktyabrın 20-də açılışını etdiyi Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yolu nəqliyyat axınının sıravi yaşlaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.

## Rəsmi xəbərlər

- Prezident İlham Əliyev oktyabrın 25-də Böyükşor–Pirşağı avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 24-də İsveçrə Konfederasiyasının və Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnaməsini qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 23-də Azərbaycanın ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ziyafət Abbas oğlu Əsgərovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Nazir sıra baxışı keçirib

## Gənclərdən 41 nəfəri Vətən müharibəsinin iştirakçısıdır



Oktyabrın 24-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 287 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 41 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.




Xalqın xilası onun tarixi missiyası idi 2

Məktuba çevrilən məmnunluq 3

Sülhün, barışığın keşiyində... 3

"Hədəfi nişan al: atəş!" 4

## Vətəndaş qəbulu keçiriləcək

### Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən noyabrın 1-də Ağcabədi Rayon Polis Şöbəsinin inzibati binasında Ağcabədi, Ağdam, Bərdə, Laçın və Zərdab şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Regionun xarici işlər nazirləri görüşüb

Oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Tehran şəhərində "3+3" regional məşvərət formatının nazirlər səviyyəsində keçirilən birinci görüşündə iştirak və çıxış edib. Nazir çıxışında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, Rusiya, Azərbaycan və İranın iştirakı ilə Şimal-Cənub dəhlizinin və Azərbaycan-İran-Türkiyə üçtərəfli formatının yalnız bir dövlətin xeyrinə deyil, hər kəsin ortaq mənfəəti olduğunu əyani şəkildə nümayiş etdirdiyini, bu layihələrin və formatların müsbət təsirinin region ölkələri ilə məhdudlaşmadığını və daha geniş coğrafiyada tərəfdaşlarımızı əhatə etdiyini diqqətə çatdırıb. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün yeni perspektivin yarandığını diqqətə çatdırıb.

### Birgə taktiki təlimlər davam edir

Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının cəlb edildiyi "Mustafa Kamal Atatürk - 2023" birgə taktiki təlimi davam edir. Bu çərçivədə "Yüksək səviyyəli müşahidəçi günü" keçirilib. Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun dəvəti ilə Türkiyənin, Tacikistanın müdafiə nazirləri, Qazaxıstanın Departament rəisi və Özbəkistanın müdafiə nazirinin döyüş hazırlığı üzrə müavini rəhbərlik etdiyi nümayəndə heyətləri birgə taktiki təlimdə iştirak ediblər.

### "Müdavimlər"i "kursantlar" əvəzlədi

Parlament "Polis haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təsdiqləyib. Qanun layihəsi Milli Məclisin oktyabrın 24-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib. Layihə daxili işlər orqanları üçün kadr hazırlayan təhsil müəssisələrində təhsil alan şəxslərin digər xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan şəxslər kimi kursant adlandırılması məqsədilə hazırlanıb. Sənəddə "müdavimləri" sözünün "kursantları" sözü ilə əvəz edilməsi təklif olunur. Beləliklə daxili işlər orqanları üçün kadr hazırlayan təhsil müəssisələrində təhsil alan şəxslər də kursant adlandırılacaq.

### Qarabağın ekologiyası bərpa olunur

İşğaldan azad edilmiş ərazilərdə 160 hektar sahədə 124 mindən çox ağac tingi əkilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bidirilib ki, bundan başqa 3000 kiloqram palıd və Şərq çinarı toxumu səpilib, salınmış yaşıllıqların suvarılması məqsədilə damcılı suvarma sistemi quraşdırılıb.

### Aktiv məşğulluq tədbirləri keçirilir

Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin doqquz ayında 255,4 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 83,2 min şəxs "Əmək və Məşğulluq" altsistemindəki vakansiya bankına yerləşdirilən vakansiyalar üzrə işlə təmin edilib, 13,2 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Təlim kurslarında iştirak edənlər kiçik bizneslərini yaratmaları üçün aktivlərlə təmin olunub. Doqquz min işsiz şəxs üçün isə işəgötürənlərlə əməkdaşlıq çərçivəsində peşə hazırlığı kursları təşkil edilib.

### İqtisadiyyatımız dəfələrlə böyüyüb

Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-ci ildəki aşağı orta gəlirli ölkələr qrupundan 2022-ci ildə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub. Son 20 il ərzində (2003-2022) Azərbaycanda Ümumi Daxili Məhsul (ÜDM) 4 dəfə, adambaşına düşən ÜDM isə 3.2 dəfə artıb. Bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov qeyd edib ki, növbəti orta və uzunmüddətli dövrdə azad edilmiş torpaqlarımızın yenidən qurulması və reinteqrasiyası iqtisadi potensialımızın artmasına geniş imkanlar vəd edir.

# Heydər Əliyev İli - 2023

## Xalqın xilası onun tarixi missiyası idi

### Dünyaya günəş kimi doğan Azərbaycan ulu öndərin şah əseridir



**SSRİ-dən qəlpə-qəlpə qopan dövlətlərin müstəqillik arzusu o zaman reallaşdı ki, artıq dünyanın o biri qütbündə mövqeyini möhkəmləndirən güc çökməkdə olan imperiyanı görməzlikdən gəldi. Onun xəritə üzərində olsa da məngənəsinə saldığı xalqların yaddaşında heç vaxt bütövləşməyən sərhədlərini demokratiya, azadlıq şüarları çox asanlıqla keçə bildi.**

Qərb leksikonunda oturuşmuş "Qırmızı imperiya" sözü artıq özündə qorxunu, gücü ifadə etmirdi. O sonu faciə ilə bitən tamaşanı xatırladırdı: qalibləri məğlub durumda, məğlubları isə çarəsiz...

#### Taleyin ümidinə buraxılanlar

İmperiya son nəfəsini toparlayıb "vətəndaş"larını bir bayraq altında birləşdirməyə cəhd etsə də, bu, uğursuzluqla nəticələndi. Çünki illərin "inam"ı itmişdi. Xalqlar ümidi okeanın o üzündə deyil, öz içlərində axtarmağa başlamışdılar. Siyasi başıpozuqluq və çökmüş iqtisadiyyat vəziyyəti xaosa sürükləyirdi.

Ermənistanı çıxmaq şərtilə imperiyanın xammal ehtiyatı olan 14 müttəfiq respublikanın durumu acınacaqlı idi. Sovet dönəmində belə qərbdən siyasi dəstək görən Ermənistanı qorumaq üçün erməni lobbisi yaranmış vəziyyətdən istifadə edərək hərəkətə keçmişdi. "Sahibsiz qalmış sərhədlər"də arzuladıqları "dövlət"i qurmaq fürsəti yaranmışdı...

#### Planlar qurulmuşdu

Siyasi böhranın dərinləşdiyi bir dövrdə müstəqiliyə can atan müttəfiqlərdən birinin, yeni Ermənistanın Azərbaycana elan olunmamış müharibəsi və bunun fonunda 1988-ci il deportasiyası gerçəkliyi üzə çıxardı. İmperiyanın gözəgörünməyənləri Qafqazda xalqlara dinclik verməyəcək yeni münaqişələrə rəvac verən "öhdəlik"ləri yerinə yetirmişdilər. Xüsusilə Qafqazı qan çanağına çevirməklə və onu məkrli planlarla nəzarətdə saxlamaqla onlar sanki imperiyanın gələcək varisinin rahatlığını təmin etmiş oldular.

#### Hədəf Azərbaycan idi

Bakı qərar verməkdə və tədbir görməkdə aciz idi. Çünki mücadilə ruhuna köklənmiş xalqa rəhbərlik edənlərdə milli ruhun yoxluğu atılan hər bir addımda özünü göstərirdi. Və ən əsası ölkə rəhbərliyindən fərqli olaraq hadisələri daha düzgün qiymətləndirən xalq dövləti məhv olma təhlükəsindən qurtarsın deyə Heydər Əliyevi yenidən siyasi səhnəyə gətirmək üçün, sözün əsl mənasında, mübarizəyə qalxdı. Çünki o, öz taleyini, gələcəyini Ona həvalə etmək istəyirdi.

Qədim Naxçıvanda, doğulduğu yurdda Bakıda baş verənləri ürək ağrısı ilə izləyən ümummilli lider yazıçı Hidayətin çox sərrast təbirincə desək, Azərbaycanın dövlət müstəqilliyi quruculuğunun qərargahını sanki Bakıdan Naxçıvana köçürmüşdü...

Hələ Qorbaçovun SSRİ-nin rəhbəri olduğu dönəmdə parlament tribunasında çıxış edən Heydər Əliyevin onun siyasətini kəskin tənqid etməsi cəsarət tələb edirdi.

Məsələn, 1991-ci il yanvarın 14-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Qorbaçovun komandası tərəfindən hazırlanmış İttifaq Müqaviləsi layihəsinin əleyhinə çıxış etdi.

1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı çıxışı isə ömrünü xalqına həsr etmiş liderin qorxmazlığının, mübarizliyinin, ölkəsini azad görmək istəyinin bariz nümunəsi idi: "...Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət quruluşunun dirçəlişi hərəkatı inkişaf edir"...Bu cəsarəti isə ona inanan, etibar edən Azərbaycan xalqı vermişdi.

#### Tarixi uzaqgörənlik

Ulu öndər deyirdi ki, Azərbaycan xalqının demokratik, heç kəsdən asılı olmayan dövlət qurması-na gedən yol milli birlikdən keçir. Bu yolda çətinliklərin, sınaqların olduğunu vurğulayan ümummilli lider ən çətin dönəmdə xalqı dəmir yumruq kimi birləşdirərək istəyinə nail oldu, hər birimizin arzusunu gerçəkləşdirdi. Müstəqil və modern Azərbaycanı qurdu, onun banisi kimi tarixi uğura imza atdı.

Bu gün Xankəndidə, Şuşada, Kəlbəcərdə, Laçında, Xocalıda, Xudafərində və azad olunmuş torpaqlarımızda bayraqlarımız ucalırsa, himnimiz dalğa-dalğa yayılırsa, o yerlər abadlaşırsa, yurd nisgilli insanlar doğma yurdlarına qayıdırsa, biz bu xoş günlərin əsasını qoyan, bizi bugünlərə qovuşdurmaq üçün ömrünü bizə bağışlayan Ulu Öndərə-Zamanəmizin böyük Azərbaycanlısı Heydər Əliyevə borcluyuq.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

## Kursantlarımız bilik yarışında

### Komandalarımızın yaddaqalan uğuru

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən, 50 ali təhsil müəssisəsinin qatıldığı "Heydər Əliyev və Azərbaycan tarixi" IX ümumrespublika bilik yarışına yekun vurulub.



Qeyd edək ki, layihə Azərbaycan tarixinin, eyni zamanda, bu il 100 illiyi qeyd edilən ulu öndərin həyatının, çoxşaxəli fəaliyyətinin, irsinin tədqiqi, öyrənilməsi və təbliği məqsədi daşıyır.

Əvvəlcə ümummilli liderin gənclərlə görüşlərini, o cümlədən onun siyasi kursunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsini əks etdirən videoçarx nümayiş olunub.

Hər biri 6 nəfərdən ibarət olmaqla komandalar "Heydər Əliyevin uşaqlıq və gənclik illəri", "Heydər Əliyev və Azərbaycanın müstəqillik illəri", "Heydər Əliyev və Qarabağ həqiqətləri", "Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü" və digər mövzularda biliklərini sınayıblar.

Yarışın qaliblə-ri sırasında Daxili İşlər Nazirliyi Polis Akademiyasının komandası ikinci, Daxili İşlər Nazirliyi Daxili Qoşunların Ali Hərbi Məktəbinin komandası üçüncü yeri tutub.

*Teymur Əlizadə*

## Tədbirlər uğurla icra olunur

### Mənəvi-psixoloji hazırlıq diqqət mərkəzindədir

Polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə oktyabrın 18-də Abşeron, 19-da isə Sumqayıt Şəhər Polis İdarələrində seminarlar təşkil edilib.

Daxili İşlər Nazirliyinin "2022-2023-cü illərdə daxili işlər orqanlarında ideoloji işin aparılması üzrə" Tədbirlər Planının icrası ilə bağlı keçirilən məşğələlərdə DİN-in Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları mühazirə ilə çıxış ediblər.

Çıxışlarda "Heydər Əliyev İli" ilə bağlı daxili işlər orqanlarını əhatə edən tədbirlərə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 20 illik xidməti fəaliyyəti ilə bağlı məlumatlara da xüsusi yer ayrılıb, 44 günlük Vətən müharibəsi və 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror tədbirləri haqda məlumatlar, eləcə də etik davranış Kodeksinin tələbləri gənc əməkdaşların diqqətinə çatdırılıb. Həmçinin xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına riayət edilməsinin vacibliyi vurğulanıb.

*Ruhiyyə Əliyeva*

# Sülhün, barışığın keşiyində...

## Qarabağda etibarlı sabitliyin təməlləri atılır

**Xankəndidə dövlət bayrağını ucaldan Prezident İlham Əliyevin şəhər komendantı polis general-mayorundan raport qəbul etməsilə yeni Qarabağ reallığında növbəti bir unudulmaz məqamın tarixləşməsi baş verdi. O an komendantın hərbi təzim üçün qalxan əli rəsmi məruzə mahiyyətilə yanaşı, həm də Azərbaycanın daxili işlər orqanlarının artıq ölkənin hər guşəsində ictimai qayda və ictimai təhlükəsizliyə tam nəzarət etdiyini dünyaya bəyanetmə məzmunu daşıyırdı.**



Bu qədim şəhərimizi separatçılar özlərinə mərkəz seçdiklərinə görə orada dövlət bayrağımızın ucaldılması, polisin xidmətə başlaması bütün bölgədə təhdidlərin zərərsizləşməsinin və nəhayət, dövlət yurisdiksiyasının geri dönüşünün təntənəsi təsiri bağışladı. İndi isə mübarizəmizdə mahiyyətcə yeni dönəm başlayır...

### Qarşıda yeni vəzifələr var

Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərlərini Bakıda qəbul edərkən demişdi ki, antiterror tədbirləri Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi. Hazırda isə ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Prezident vurğulamışdı ki, hələ ərazilərdə gizlənməyə davam edən müəyyən qrupların mövcud olması barədə məlumatlar var: "Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq".

Prezidentin dilə gətirdiyi bu vəzifənin öhdəsindən gəlmək, bölgəni qaçaq-quldurlardan tam təmizləmək, aydın məsələdir ki, gərgin xidmət, əzmkar fəaliyyət tələb edir. Bu gün şəhər və rayonlarda qurulan postlar, müəyyən ərazilərdə təşkil edilən patrul xidməti həm bu, həm də ərazidə məskunlaşacaq sakinlərin təhlükəsizliyinə indidən zəmin yaratmaq baxımından vacibdir. Daxili işlər orqanlarının bu fəaliyyəti yalnız yurdlarına dönəcək azərbaycanlı sakinlər üçün deyil, həm də dövlət qarşısında hüquq və vəzifələrini qəbul edən erməni əsilli vətəndaşların güvənliyinə xidmət edən peşəkar fəaliyyət örnəyi kimi qiymətlidir.

### Sülhün sütunları

Bunu hətta dünyada kimsə dana bilməz ki, multikultural və tolerant dəyərlər Azərbaycanın mənəvi sərvəti, azərbaycanlıların da həyat tərzidir. Bizim qanunların və qanun keşikçilərinin bir məqsədi elə bu sərvəti qorumaqdır. Ona görə cəsarətlə qeyd edə bilərik ki, daxili işlər orqanlarının başda Xankəndi olmaqla Qarabağın bütün rayon və şəhərlərindəki fəaliyyəti hər kəsi xalqımıza xas tolerant dəyərlərə, multikultural harmoniyaya qatılmağa dəvət edir. Hələ antiterror tədbirləri bitər–bitməz bu qayə elan edilmişdi. Necə ki, ölkənin digər şəhər və rayonlarında, kəndlərində sakinlərin hüquqları, azadlıqları qorunursa, can və əmlakı mühafizə edilirsə, azad edilmiş ərazlərdə yaşayan və geri dönəcək erməni əsilli sakinlərin də təhlükəsizliyinin eyni həssaslıqla qorunacağı rəsmi səviyyədə bəyan olunmuşdu.

Bütün bunları nəzərə alaraq, bu gün Qarabağda etibarlı sabitliyin, uzun illər etnik separatizmdən sonra sülh, barışıq şəraitində birgə yaşayışın təməllərinin atıldığını deyə bilərik. Bu bölgədə inamla sülhün sütunları "bərkidilir". Bəlkə də Xankəndi mərkəzli ərazilərdə xidmət edən polislərə, Daxili Qoşunların hərbçilərinə ümumi ifadə ilə asayiş keşikçiləri demək, bu mənada yetərsiz qalır. Çünki, ilk dəfədir polisin missiyasında qalıcı sülh perspektivi də vardır. Deməli, o bölgəmizdəki polis eyni zamanda, sülhün, barışığın keşiyini çəkir.

*Rəşad Mehtiyev*

# Hərbi qulluqçularla məşğələ

## Sürücülərin bilik səviyyəsi təkmilləşdirilir



"Yol-nəqliyyat hadisələrinin qarşısının alınması" üzrə tədbirlər planına əsasən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları DİN Daxili Qoşunların "N" saylı hərbi hissəsində hərbi qulluqçularla maarifləndirici görüş keçiriblər. Bir günlük məşğələdə fərdi nəqliyyat vasitələrinin sahibləri və sürücülərlə yol-nəqliyyat hadisələrinin qarşısının alınması, yollarda hərəkətin təhlükəsizliyinin təmini, eləcə də sürücülərə avtomobillərini qaydalara uyğun idarəetmələrinin zəruriliyi izah olunub.

Sonda hərbi qulluqçuların fərdi nəqliyyat vasitələri bort kompüter vasitəsilə yoxlanılıb.

# Dəymiş ziyan ödətdirilib

## Vətəndaş məmnunluğu etimadın və etibarın nümunəsidir

Sumqayıt şəhər sakini Şərabanı Sadıxova tanışı tərəfindən dələduzluğa məruz qalıb. Bununla bağlı o, Yasamal Rayon Polis İdarəsinə müraciət edib. İdarənin İstintaq Şöbəsinin əməkdaşları etibardan sui-istifadə etməklə vətəndaşa xeyli miqdarda maddi ziyan vurmuş şəxsin Bakı şəhər sakini Fikrət Məmmədov olduğunu müəyyənləşdiriblər.

Araşdırma zamanı məlum olub ki, sonuncu zərərçəkmişə guya əlilliyi ilə əlaqədar sosial evlərin satışı zamanı ona güzəştli şərtlərlə mənzil alacağını, bütün lazımi məsələləri həll edəcəyini yalan vəd verərək 15500 manatını mənimsəyib.

Saxlanılan şəxs dindirilmə zamanı əməlini etiraf edib və peşmançılıq hissi keçirdiyini bildirib.

Şöbə əməkdaşları tərəfindən zərərçəkmişə dəymiş maddi ziyan tam ödətdirilib, vətəndaş məmnunluğu təmin olunub.

Təqsirləndirilən F.Məmmədov barəsində toplanmış materiallar rayon Prokurorluğuna göndərilib.

*Teymur Əlizadə*
*polis mayoru*

# Nəcib təşəbbüs

## Polislər donor oldular



Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədi ilə Yasamal Rayon Mühafizə İdarəsinin əməkdaşları qan veriblər.

Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən donor polis əməkdaşlarının sağlamlığı öncədən müəyyən olunub, onlardan qan analizi götürülüb.

Bu nəcib təşəbbüsdə iştirak edən polislər qan xəstəliklərindən əziyyət çəkənlər, xüsusən də uşaqlar üçün könüllü qan verməyin xeyirxah iş və vətəndaşlıq borcu olduğunu qeyd ediblər. Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.

# Keçmiş məhkumlar saxlanılıb

## İstintaqla onların daha bir neçə cinayətinin üstü açılıb

Binəqədi rayonu Sulutəpə qəsəbəsində yerləşən marketlərdən birində quraşdırılan içərisində 10362 manat olan ödəmə terminalı naməlum şəxslər tərəfindən oğurlanıb. Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat nəticəsində ödəmə terminalını oğurlamaqda şübhəli bilinən Salyan rayon sakinləri, əvvəllər məhkum olunmuş 1986-cı il təvəllüdlü Namiq Alxanov və həmyaşıdı Miri Fətiyev saxlanılıblar.

Araşdırma zamanı bu şəxslərin paytaxtın müxtəlif ərazilərində, habelə Abşeron rayonunda daha bir neçə marketdə quraşdırılan ödəniş terminallarından oğurluq etdikləri məlum olub.

Faktla bağlı Binəqədi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

# Gənclik və gələcək naminə

## Vətəndaş dəstəyi vacib amildir

"Gənclərin Anti-Narkomaniya" ictimai birliyinin və Baş Narkotiklərlə Mübarizə İdarəsinin təşəbbüsü ilə Azərbaycan Universitetində "Həyatına dəyər ver!" adlı maarifləndirici görüş keçirilib.

Tədbirdə narkomaniyanın sosial, fizioloji fəsadlarından danışılıb, narkotacirlərin məhz iradəsi zəif, zərərli vərdişlərə meyilli gəncləri hədəf seçdikləri bildirilib.

Səbail Rayon Polis İdarəsinin təşəbbüsü ilə Badamdar qəsəbəsindəki 329 nömrəli tam orta məktəbdə keçirilən "Uşaqlar bizim gələcəyimizdir" adlı maarifləndirici görüş də mübarizə tədbirlərinin davamıdır.

Görüşdə RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov maarifləndirmə tədbirlərinin gənclər arasında narkomaniya və narkomanlığa qarşı mübarizədə rolundan danışıb, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərindən bəhs edib.

# "Vəzifəli şəxs" ifşa olundu

## Zərərçəkmişləri işə düzəltmək adı ilə aldatdı

Daxili İşlər Nazirliyinə naməlum şəxsin vətəndaşları işə düzəldəcəyi adı altında aldadıb onlayn ödəniş sistemlərindən istifadə etməklə onların pul vəsaitlərini ələ keçirdiyi barədə çoxsaylı şikayətlər daxil olub. Keçirilmiş əməliyyat-texniki tədbirlər nəticəsində qeyd edilən əməli törətməkdə şübhəli bilinən Həsənov Anar Alıhəsən oğlu saxlanılaraq istintaqa təqdim edilib.

Araşdırmalarla müəyyən olunub ki, A.Həsənov tanış olduğu şəxslərə özünü müxtəlif dövlət qurumlarının vəzifəli şəxsi kimi təqdim edərək onlarda özünə qarşı inam yaradıb. Sonrakı müddətdə isə həmin şəxsləri dövlət qurumlarında işlə təmin edəcəyi adı altında aldadaraq 50-dən artıq zərərçəkənin pulunu ələ keçirib.

Aşkar edilən faktlarla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

*Anar Qafarav*
*polis mayoru*

# Məktuba çevrilən məmnunluq

## Əcnəbilər də minnətdarlıq edir

**İnsan hüquq və azadlıqlarının qorunması, yaradılan sabitlik və əmin-amanlıq ölkəmizə təşrif buyuran əcnəbilərin də diqqətini çəkir.**

Çünki vətəndaşlarımızla yanaşı, turistlər də umduqları yerdən küsmürlər. Hətta bəziləri ilə söhbət zamanı: "Düzü, biz belə gözləmirdik. İndi bildik və gördük ki, Azərbaycanda nə üçün polisə etibar edirlər",- demələri fəaliyyətimizə verilən qiymətin bariz nümunəsidir.

**Fransa Respublikasının Orlean şəhər sakini Fabiel Martin** Quba rayonu ərazisində asayişin və təhlükəsizliyin təmin olunmasına görə Rayon Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Rusiya Federasiyası vətəndaşı İqor Yadro** itirdiyi mobil telefonu ilə bağlı etdiyi müraciətdən sonra polis əməkdaşları tərəfindən qısa zamanda tapılaraq geri qaytarılmasına görə minnətdarlıq edir.

**Pakistan vətəndaşı Əli Xuşnam** problemlərinin həll olunmasında Binəqədi RPİ 5-ci Polis Bölməsinin əməkdaşlarının ona göstərdikləri köməkliyə görə təşəkkürünü bildirir.

**Xarici ölkə vətəndaşı Məkki Muhəmməd** üzləşdiyi problemlə bağlı müraciətinə operativ baxıldığına görə Nərimanov RPİ 16-cı Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını bildirir.

**Portuqaliya vətəndaşı Catarina Luwaqa** taksidə unutduğu elektron cihazının tez bir zamanda tapılıb ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Yasamal RPİ 27-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir. O, Azərbaycan Polisinin peşəkar xidməti fəaliyyətini yüksək dəyərləndirir.

*Aytən Tahirova*
*polis leytenantı*

# Silah-sursat aşkarlanıb



Daxili işlər orqanlarının əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində tədbirlər davam etdirilir.

Bərdə regional qrupumuzdan verilən məlumata görə, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşlarının rayonun Çullu kəndi ərazisində keçirdiyi tədbirlər nəticəsində 2 minaatan qurğusu, 7 pulemyot, 4 avomat, xeyli sayda müxtəlif çaplı patron və digər sursatlar götürülərək aidiyyəti üzrə təhvil verilib.

# “Hədəfi nişan al: atəş!”

## Əməkdaşlarımızın əsas peşə bacarıqları DİN-in Atıcılıq tirində formalaşır

**Tirin qarşısında düzülmüş polis əməkdaşlarına təlimatçının uca səslə təhlükəsizlik qaydaları haqqında məlumat verməsi atəş təliminin başlanmasına çox az qaldığını göstərirdi.**

Atıcılıq tirində və atəş zonasında qadağan olunan hallar, silahla təhlükəsiz davranış qaydaları sıradakı əməkdaşlar üçün təzə xəbər deyildi. İlləri keçən təcrübələri var, üstəlik, polislər hər il ən azı 4 dəfə bu cür təlimə cəlb olunurlar. Ancaq yenə də diqqətlə dinləyirdilər. **“Güllə yuvasında yad cisimin olub-olmadığına mütləq baxmaq lazımdır. Silah təhlükəsiz zonaya tuşlanıb üç dəfə yoxlanılmalıdır”**,- deyən təlimatçı “Zəfər”in üzərindəki çaxmağı eyni sayda çəkib buraxdı. O, sərrast olmaq üçün texniki bilgiləri özünəməxsus tərzdə, yeri gəldikcə obrazlı ifadə edirdi.

Çox keçmədən əməkdaşlar təlimatçının haqqında bəhs etdiyi təhlükəsiz davranış qaydaları ilə tanış olduqları və döyüş sursatını təhvil aldıqları barədə cədvəli imzalayıb üzərində “Atəş var!” yazılmış zalın qarşısında sırayla dayanmışdılar. Burada təlimatçının aydın səsini zaldakı boğuq güllə səsləri əvəzləmişdi.

Atıcılıq tirinin rəisi, polis mayoru Ayxan Mahmudov deyir ki, tirdə Nazirliyin aparatının, ona tabe olan Baş İdarə və idarələrin, Bakı şəhər BPİ-nin tabeliyində olan idarə və şöbələrin, eləcə də DİN-in Əlahiddə Çevik Polis Alayının əməkdaşları ilin əvvəlində təsdiqlənmiş plana uyğun olaraq atəş açma bacarıqlarını təkmilləşdirirlər. Onun sözlərinə görə, DİN rəhbərliyi atəş hazırlığının yüksək səviyyədə olmasına əsas peşəkarlıq keyfiyyətlərindən biri kimi baxır və bunu hər bir əməkdaşdan tələb edir: **“Biz də həmkarlarımızda silahdan düzgün, sərrast, bacarıqla istifadə etmək vərdişi yaratmağa çalışırıq”.**

On üç il əvvəl istifadəyə verilən DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Atıcılıq tiri müasir avadanlıq və silahlarla təchiz olunub. Bu il avtomatdan atəş açmaq üçün 100 metrlik açıq poliqon əsaslı şəkildə təmir olunub. Polis əməkdaşları həm elektron, həm gedib-gələn raylar üzərində uzaqlığı 10–50 metr arasında dəyişən hədəflərə tapançadan atəş açırlar. Biz orada olarkən 3 nömrəli tapşırığa əsasən 15 metrlik məsafədə hədəflər üzərində təlim keçirilirdi.





Atəş zalının qapısı hər dəfə açılıb-bağlananda içəridəki əməkdaşları növbəti atışa hazırlayan təlimatçının yenə ucadan səsi eşidilirdi: **“Qarşınızdakı silahlı cinayətkardır. Siz onu vurmasanız, o sizi vuracaq!”.**

“Cinayətkarı” zərərsizləşdirmiş əməkdaşların isə atış göstəricilərinin yaxşı olması onların həm qiymət cədvəlində görünürdü, həm də sevinc hisslərini açıq-aşkar büruzə vermələrindən bəlli olurdu. Onlardan biri, polis serjantı Telman Həsənov deyir ki, sərrast atəş açmağa vaxtlı-vaxtında keçirilən məşğələlərdə davamlı olaraq iştirak etməyin çox köməyi dəyir.

Nəhayət, təlimatçıların özlərilə, polis baş serjantları Ramil Paşayev və Ziya Səfərliylə danışmaq fürsəti yaranır.

Xidmətə yeni başlayan əməkdaşlara təlim zamanı xüsusi diqqət ayırdıqlarını deyən R.Paşayev praktiki məşğələlərdə əsasən yerli istehsal olan “Zəfər K” tapançasından istifadə edildiyini bildirir. Müxtəlif ölkələrin istehsalı olan silahlardan da təlimlərdə istifadə olunur. Onun fikrincə, polis əməkdaşlarının hazırlıq səviyyəsi onların peşələrini hansı dərəcədə sevməsindən və yaradılan şəraitdən çox asılıdır: **“Tirin istifadəyə verildiyi vaxtdan bəri, buradakı ən müasir avadanlıqlar, atəş nəticələrinin elektron formada əldə olunması, güllə sayının və müxtəlif silahlardan praktiki atəş təlimlərinin əvvəlki illərə nisbətən çoxalması əməkdaşların bacarıqlarını xeyli artırıb”.**

Sərrast atəşin əməkdaşdan texniki və psixoloji hazırlıq tələb etdiyini deyən Z.Səfərli isə qeyd edir ki, atəşin dəqiq olması üçün ilk növbədə, gərək, güllə açılana qədər nişangahla arpacığı stabil saxlayasan, təlimatçının atəş texnikası ilə bağlı sözlərinə düzgün əməl edəsən: **“İkincisi, atəşdən qorxmayasan, diksinməyəsən”.**

Onun sözlərinə görə, polis əməkdaşlarının uzun müddət istifadə etdikləri “Makarov” tipli tapançadan fərqli olaraq, “Zəfər” tapançalarında geritəpmə az olur. Buna görə də hədəfin mərkəzinə düşmək üçün aşağıdan nişan almağa gərək yoxdur, hara nişan alınırsa, güllə də ora istiqamətlənir: **“Bəzən atıcı özünü güllə açılan ana hazırlayır, son anda tətiyi möhkəm çəkir və silah aşağı əyilir. Bunu isə kənardan izləyən təlimatçı əməkdaşı xəbərdar etməklə səhvi düzəldir. Nəticə də yaxşı olur”.**

Hədəfi vurmaq peşəkarlığın göstəricisidir. Bu isə gərgin zəhmət hesabına başa gəlir. Qarşıda duran vəzifələr də belədir – öhdəsindən gəlmək üçün hər bir əməkdaş çalışmalı və əzm nümayiş etdirməlidir.

Biz tirdən çıxanda artıq gün yarını keçmişdi, üzərində “Atəş var!” yazılmış lövhənin işıqları isə hələ də yanırdı...

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Ölkəmiz ev sahibliyi edəcək

## Azərbaycanın təşkilatçılığı yüksək qiymətləndirilib



Avropa Atıcılıq Konfederasiyasının 29-cu Baş Assambleyasında Beynəlxalq Atıcılıq Federasiyasının prezidenti Luçiano Rossi, Avropa Atıcılıq Konfederasiyasının prezidenti Alexander Ratner, ölkəmizin gənclər və idman nazirinin müavini Mariana Vasileva və 50-yə yaxın Avropa ölkəsinin nümayəndələri iştirak edib.

İki ildən bir keçirilən Assambleyada növbəti illərdə Avropa çempionatına ev sahibliyi edəcək ölkələr üzrə müzakirələr həyata keçirilib.

Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov gələn ilin may ayında atıcılıq üzrə Dünya Kuboku mərhələsinin Azərbaycanda keçiriləcəyini diqqətə çatdırıb.

Səsvermənin nəticələrinə görə, 2026-cı ildə güllə atıcılığı üzrə qitə birinciliyi Estoniyada, stend atıcılığı yarışı isə Yunanıstanda keçiriləcək. 2027-ci ildə isə Avropa çempionatının müvəqqəti təsdiqlə Finlandiyada keçirilməsi nəzərdə tutulub.

Assambleyada dünya Atıcılıq Federasiyasının prezidenti Luçiano Rossi Olimpiya oyunlarına hazırlıq dövrünün Bakıda keçirilməsinin planlaşdırıldığını, bu sahədə Azərbaycanın yüksək təşkilatçılıq təcrübəsinin olduğunu və Azərbaycanın atıcılıq mərkəzinin Avropanın, hətta dünyanın ən yaxşılarından hesab edildiyini bildirib.

# Qızıla bərabər medal

## Əməkdaşımız Avropanın güclüləri sırasındadır

DİN Daxili Qoşunlarının İdman komandasının məşqçi-müəllimi kapitan Ruslan Lunyov Xorvatiyanın paytaxtı Zaqreb şəhərində keçirilən Lapua Avropa Kubokunda 25 metr məsafəyə standart tapançadan atəş üzrə yarışda bürünc medal qazanıb.

Qeyd edək ki, keçirilən Lapua Avropa Kuboku Avropa Atıcılıq Konfederasiyasına məxsusdur və Avropanın qeyd edilən növdə ən güclü atletlərinin yarışıdır.



*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Məlumatları qoruya bilirikmi?

Beynimizdəki məlumatlar təhlükəsiz yerlərdədirmi? Amerikadan və İngiltərədən olan bir qrup alimin bu suala cavabı "xeyr"dir. Araşdırmaçı alimlər kompüter oyunları üçün istifadə edilən bir alət sayəsində kompüter istifadəçilərinin beynini oxuyaraq, gizli məlumatlar əldə ediblər. Berkli, Oksford və Cenevrə universitetlərinin mütəxəssisləri bu yolla insan beyninin hakerlənə biləcəyini deyir. "Emotiv" adlı cihaz əldən istifadə edilmədən oyun oynamağa kömək edən vasitədir.

Könüllülər qrupuna «emotiv» taxılıb və kompüter ekranında bankların adları, şəkilləri, tanıdıqları şəxslərin adları, şifrələr nümayiş etdirilib. Tanış obyektləri görən beyin P300 adı verilən özəl bir siqnal verib. Alimlər bu siqnalı izləyərək gizli məlumatları əldə ediblər. Sınaq 40 faiz uğurla nəticələnib.

# Müdriklərin söz xəzinəsi

Güclü və haqlı qalib olacaq. Geci-tezi var.
**V.Hüqo**

Hədəfi olmayan gəmiyə heç bir külək kömək edə bilməz.
**Monten**

Başqalarının izi ilə gedən iz qoya bilməz.
**Con İ.Brannon**

Nəfsinə hakim olan dünyaya hakim olar.
**Volter**

Elm sərvətdən də üstündür. Çünki sərvəti sən qoruyursan, elm isə səni qoruyur.
**Hz.Əli**

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Dərzi xanımın axtarışı

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

Buna görə ehtimal etdim ki, axtardığım qozbel qarı şayiələrdən xəbərdar olmaq üçün bulka bişirənlər, süd satanlar, baqqallar, tərəvəz satanlarla daim ünsiyyətdə olur. Bu şayiələr mənbəyindən istifadə etməyə qərar verdim. Bilirdim ki, qozbel qarılar özlərinə ər axtarmaq üçün yaxşı evdar qadın olduqlarını göstərməyə çalışır və səhər tezdən durub işləri ilə məşğul olurlar. Buna görə, axtardığım qozbeli tapmaq üçün səhər saatlarında xoruzların ilk banı ilə durmağa və müşahidələrimə davam etməyə başladım. İlk növbədə aydınlaşdırmalıydım ki, qozbel qarı hansı süd satana üstünlük verir? Əlbətdə ki, daha çox danışmağa meyilli və çox alıcısı olana üstünlük verərdi. Teveno küçəsində tində belə bir süd satan xanım gözümə dəydi, o, dayanmadan danışır, daim bir dəstə dilənçi ilə əhatə olunmuşdu. Anladım ki, faktiki olaraq bütün məhəllənin görüş yerini tapmışam. Bu süd satan xanımı gözdən qoymamağı qərara aldım.

Süd satan xanımı artıq ikinci gündür ki, müşahidə edirdim. Səhər tezdən müştərilər məntəqəsinə gəlir və səbirsizliklə axtardığım qozbel qarının gəlməsini gözləyirdim. Süd almağa cavan qızlar, xadimələr, hər kəs gəlirdi, “ulduzum” isə gözə dəymirdi. Çox təlx olmuşdum, fikirləşirdim ki, bu dəfə də alınmayacaq. Amma, birdən o göründü. İlahi! O, necə nəcib idi. Bu çox gözəl, qozbel Veneraydı! Qozbel qarı süd satana yaxınlaşdı, bir az söhbət etdikdən sonra



süd aldı, Pet-Karo küçəsi ilə yola düşərək dülgərin dükanı olan binaya gəldi. Başımı qaldırıb binaya baxdım, amma sarı pərdəsi olan mənzillər görmədim. Başa düşdüm ki, pərdəni dəyişə bilərdilər və burada təəccüblü heç nə yoxdur. Hiss edirdim ki, bu qarı ilə söhbət etsəm, düz yolu tapacağam. Pilləkənlərlə qalxdım və qozbel xanımın hansı mərtəbədə yaşadığını soruşdum.

- Siz dərzi haqqında soruşursunuz? – deyə gülümsəyərək cavab verdilər.

- Hə, o dərzini soruşuram – dedim.

### “Ələkeçməz dərzi” tapılır

Onların gülməyinə hirslənməməyə çalışdım. Gərək öz roluma sadiq qalaydım. Göstərilən qapını döydüm, qapını qozbel xanım özü açdı. Nəzakət xatirinə narahat etdiyim üçün üzrlü saymasını söylədim. Xahiş etdim ki, bir neçə dəqiqə vaxt ayırsın. Şəxsi işimlə bağlı danışmaq istədiyimi dedim.

- Madmazel! Təntənəli şəkildə deyərək – qapısındakı stulda əyləşdim.

- Sizin evinizə gəlməyimin səbəbini bilmirsiniz. Bəlkə, bu səbəbi bildikdən sonra mənə kömək edəcəksiniz.

Dərzi xanım güman etdi ki, ona məhəbbət bəslədiyimi söyləyəcəm. Çöhrəsi qızardı və gözləri parıldadı, gözlərini aşağı dikdi. Mən davam etdim.

- Şübhəsiz, təəccüblənəcəksiniz ki, mənim yaşımda 20 yaşlı gənc kimi vurulmaq olar?

- Siz çox cavan qalmısınız! – xanım təbəssümlə cavab verdi.

Onu daha çox bu vəziyyətdə saxlamaq istəmədim və özümü çox gümrah hiss etdiyimi söylədim.

*(Ardı var)*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik